*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 521-530*

https://doi.org/10.62837/2025.10.521

**VƏLIYEVA ŞÜKUFƏ ÇINGIZ QIZI**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# A.MİLLER VƏ C.K. OUTSUN ƏSƏRLƏRİNİN KONTEKSTİNDƏ ABŞ ƏDƏBİYYATINDA "KİÇİK ADAM" MÖVZUSUNUN TƏHLİLİ

**Xülasə**

Bu məqalədə Artur Miller və Coys Karol Outsun əsərləri vasitəsilə ABŞ ədəbiyyatında "kiçik adam" mövzusunun necə işlənildiyi araşdırılıb. ABŞ ədəbiyyatında "kiçik adam" anlayışı cəmiyyətdə təzyiq altında olan, həyatı boyunca ağır şəraitdə yaşayan və öz qisməti ilə barışan sadə insanların taleyini əks etdirən bir mövzu kimi geniş yer almışdır. Bu mövzu ABŞ cəmiyyətinin müxtəlif dövrlərində sosial, iqtisadi və mənəvi dəyərlərin tənqidinə çevrilmişdir. A.Miller və J.C.Outs kimi yazıçılar bu mövzunu öz əsərlərində mükəmməl şəkildə işləyərək cəmiyyətin zəif üzvlərini ədəbiyyat səhnəsinə çıxarmışlar. Məqalədə, həmçinin A.Miller və C.K.Outsun əsərlərində kiçik adam mövzusunun necə işlənməsi müqayisə edilir və onların fərqli yanaşmaları təhlil olunur. Belə ki, A.Miller daha çox sosial və iqtisadi problemlərə diqqət yetirdiyi halda, C.K. Outsun əsərlərində fərdi və psixoloji aspektlər ön plana çıxarılır. Hər iki yazıçı "kiçik adam"ın həyat mübarizəsini və onun yaşadığı çətinlikləri ustalıqla ədəbiyyatın mərkəzinə yerləşdirir və cəmiyyətin təzyiqləri altında qalan fərdlərin hekayələrini izah edir, bu fərdlərin uğursuzluqlarının səbəblərini aydınlaşdırır. Bunlardan əlavə, A.Miller iqtisadi və sosial təzyiqlərin fərdlər üzərindəki dağıdıcı təsirini vurğularkən, C.K. Outs sosial strukturların və gender rollarının fərdlərin həyatında necə təzahür etdiyini göstərir. Bu əsərlərin təhlili "kiçik adam" mövzusunun ABŞ ədəbiyyatında nə dərəcədə aktual və əhəmiyyətli olduğunu sübut edir. A.Miller və C.K.Outs bu mövzunun müxtəlif aspektlərini işıqlandıraraq ABŞ cəmiyyətindəki sosial-mənəvi problemləri açıq şəkildə ortaya qoyur, bu məsələlərin müasir dövrdə də aktual olduğunu göstərir. Nəticədə, bu mövzu yalnız ədəbiyyat sahəsində deyil, həm də sosial elmlər, psixologiya və mədəniyyət tədqiqatları sahələrində də dərin tədqiqata layiqdir.

**Açar sözlər:** kiçik adam, ABŞ ədəbiyyatı, Artur Miller, Coys Karol Outs, sosial tənqid, təhlil

**Valiyeva Shukufa Chingiz gizi**
**PhD in Philology, Associate Professor**

# ANALYSIS OF THE THEME "LITTLE MAN" IN AMERICAN LITERATURE IN THE CONTEXT OF THE WORKS OF A. MILLER AND J.C. OATES

**Summary**

This article examines how the theme of the "little man" is used in American literature through the works of Arthur Miller and Joyce Carol Oates. The concept of

the "little man" has found widespread use in American literature as a theme reflecting the fate of ordinary people who are oppressed by society, who live in difficult conditions throughout their lives, and who come to terms with their fate. This topic has become a criticism of social, economic and moral values in different periods of US society. Writers such as A. Miller and J. C. Outs have worked on this topic perfectly in their works, bringing the weakest members of society to the literary stage. The article also compares how the theme of the little man is treated in the works of A. Miller and C. K. Outs and analyzes their different approaches. Thus, while A. Miller focuses more on social and economic problems, C. K. Outs' works emphasize individual and psychological aspects. Both writers skillfully place the life struggle of the "little man" and the difficulties he experiences at the center of literature and tell the stories of individuals who are under the pressure of society, clarifying the reasons for the failures of these individuals. In addition, while A. Miller emphasizes the destructive impact of economic and social pressures on individuals, C.K. Outs shows how social structures and gender roles manifest themselves in the lives of individuals. The analysis of these works proves how relevant and important the theme of the “little man” is in American literature. A. Miller and C.K. Outs, illuminating various aspects of this theme, clearly reveal the socio-moral problems in American society, showing that these issues are still relevant in modern times. As a result, this topic deserves in-depth research not only in the field of literature, but also in the fields of social sciences, psychology and cultural studies.

**Keywords:** little man, American literature, Arthur Miller, Joyce Carol Outs, social criticism, analysis

**Велиева Шюкуфа Чингиз кызы**
**кандидат филологических наук, доцент**

# АНАЛИЗ ТЕМЫ «МАЛЕНЬКИЙ ЧЕЛОВЕК» В АМЕРИКАНСКОЙ ЛИТЕРАТУРЕ В КОНТЕКСТЕ ТВОРЧЕСТВА А. МИЛЛЕРА И ДЖ. К. ОУТС

## Аннотация

В данной статье рассматривается, как тема «маленького человека» используется в американской литературе на примере произведений Артура Миллера и Джойс Кэрол Аутсан. Концепция «маленького человека» нашла широкое применение в американской литературе как тема, отражающая судьбу простых людей, угнетённых обществом, живущих в сложных условиях на протяжении всей жизни и примиряющихся со своей участью.Эта тема стала критикой социальных, экономических и моральных ценностей в разные

периоды развития американского общества. Такие писатели, как А. Миллер и Дж. К. Аутс, прекрасно проработали эту тему в своих произведениях, выводя на литературную сцену самых слабых членов общества. В статье также сравнивается трактовка темы маленького человека в произведениях А. Миллера и С. К. Аутса и анализируются их различные подходы. Так, в то время как А. Миллер больше фокусируется на социальных и экономических проблемах, произведения С. К. Аутса подчёркивают индивидуальные и психологические аспекты. Оба писателя умело помещают жизненную борьбу «маленького человека» и трудности, которые он испытывает, в центр литературы и рассказывают истории людей, находящихся под давлением общества, проясняя причины неудач этих людей.

Кроме того, в то время как А. Миллер подчёркивает разрушительное воздействие экономического и социального давления на человека, К. К. Аутс показывает, как социальные структуры и гендерные роли проявляются в жизни человека. Анализ этих произведений доказывает, насколько актуальна и важна тема «маленького человека» в американской литературе. А. Миллер и К. К. Аутс, освещая различные аспекты этой темы, наглядно раскрывают социально-моральные проблемы американского общества, показывая, что эти вопросы сохраняют свою актуальность и в наше время. Следовательно, эта тема заслуживает глубокого исследования не только в области литературы, но и в области социальных наук, психологии и культурологии.

**Ключевые слова:** «маленький человек», американская литература, Артур Миллер, Джойс Кэрол Аутс, социальная критика, анализ

## Giriş

ABŞ ədəbiyyatında "kiçik adam" mövzusu uzun müddət geniş tədqiq edilən və cəmiyyətin sosial, iqtisadi, mədəni və psixoloji aspektlərini təhlil etmək üçün bir vasitə kimi istifadə olunan aktual bir mövzudur. "Kiçik adam" anlayışı cəmiyyətdə təzyiq altında olan insanların taleyini, onların çətinliklərlə dolu həyatlarını və ABŞ cəmiyyətindəki sosial ədalətsizlikləri əks etdirir. Bu mövzu xüsusilə, XX əsrin ikinci yarısından etibarən ABŞ ədəbiyyatında dərin sosial və psixoloji tədqiqatların aparılmasına səbəb olmuşdur. Artur Miller və Coys Karol Outsun əsərlərində kiçik adam mövzusu ABŞ –da ailə strukturlarının dağılması, sosial təzyiqlər və şəxsi mübarizələr kimi məqamlarla sıx bağlıdır və geniş təhlil üçün əlverişli material təqdim edir.

Mövzunun aktuallığı "kiçik adam"ın müasir cəmiyyətlərdə qarşılaşdığı çətinliklərin və sosial ədalətsizliklərin hələ də mövcud olması ilə əlaqədardır. Qloballaşma, iqtisadi bərabərsizliklər və sosial təzyiqlər fonunda "kiçik adam" anlayışı bu gün də aktualdır və onun ədəbiyyatda əks olunması bu problemlərin dərin

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri №10, 2025
Səh. 521-530

sosial köklərini və psixoloji təsirlərini anlamaq üçün mühüm vasitədir. A.Miller və C.K.Outsun əsərləri bu mövzunun müxtəlif aspektlərini işıqlandıraraq cəmiyyətin müasir problemlərinə uyğun gələn bir perspektiv təqdim edir.

Bu tədqiqatın obyekti Artur Miller və Coys Karol Outsun əsərləridir. Tədqiqatın predmeti isə bu əsərlərdə "kiçik adam" mövzusunun işlənmə üsulları və bu mövzunun ABŞ ədəbiyyatında sosial və psixoloji aspektləri ilə necə əlaqələndirildiyidir.

Tədqiqatın əsas məqsədi Artur Miller və Coys Karol Outsun əsərlərində "kiçik adam" mövzusunun təhlilini aparmaq və bu mövzunun ABŞ ədəbiyyatında necə işlənildiyini göstərməkdir. Bu məqsədə nail olmaq üçün qarşıya qoyulan vəzifələr aşağıdakılardır:

- A.Millerin "Satıcının Ölümü" ("Death of a Salesman") və C.K.Outsun "Yer üzündəki sevinclər bağı" ("A Garden of Earthly Delights") əsərlərində kiçik adam anlayışının təhlili;
- Hər iki müəllifin əsərlərində sosial və psixoloji məsələlərin, iqtisadi bərabərsizliyin və ailə münasibətlərinin bu mövzuyla necə əlaqələndirildiyinin araşdırılması;
- A.Miller və C.K.Outsun "kiçik adam" mövzusuna yanaşmalarının müqayisəli təhlili;
- Bu əsərlərin ABŞ ədəbiyyatına və ümumilikdə dünya ədəbiyyatına töhfələrinin qiymətləndirilməsi.

Bu tədqiqatın elmi yeniliyi Artur Miller və Coys Karol Outsun əsərlərində "kiçik adam" mövzusunun təhlilinin sistemli şəkildə aparılmasından və bu mövzunun müxtəlif sosial və psixoloji aspektlərinin birgə öyrənilməsindən ibarətdir. Tədqiqat, həmçinin, AMiller və C.K.Outsun əsərlərindəki "kiçik adam" anlayışının ABŞ ədəbiyyatında və mədəniyyətində daha geniş şəkildə necə inkişaf etdiyini göstərməyi hədəfləyir.

Bu tədqiqatın nəzəri əhəmiyyəti ABŞ ədəbiyyatında kiçik adam mövzusunun müxtəlif istiqamətlərdə araşdırılmasına töhfə verməkdən ibarətdir. Bu araşdırma sosial ədəbiyyatşünaslıq, psixoloji ədəbiyyatşünaslıq və mədəniyyət tədqiqatları sahələrində mövcud olan bilikləri genişləndirə bilər. Praktik əhəmiyyəti isə ondan ibarətdir ki, bu tədqiqat müəllimlər, tədqiqatçılar və tələbələr üçün faydalı ola bilər, həmçinin ABŞ ədəbiyyatının daha dərindən öyrənilməsi və analiz edilməsi üçün bir mənbə kimi istifadə edilə bilər.

## Əsas hissə

"Kiçik adam" mövzusu ABŞ ədəbiyyatında xüsusi əhəmiyyətə malikdir, çünki bu mövzu cəmiyyətin zəif təbəqələrinin, sıravi insanların həyatını, onların təcrübələrini və mübarizələrini əks etdirir. Bu mövzu ABŞ cəmiyyətinin sosial ədalətsizliklərini, iqtisadi bərabərsizlikləri və fərdlərin cəmiyyətdə yer tapmaq üçün apardıqları mübarizəni göstərmək üçün bir güzgü rolunu oynayır. ABŞ ədəbiyyatında

"kiçik adam" anlayışı həm fərdi, həm də kollektiv səviyyədə qarşılaşılan çətinlikləri, məğlubiyyətləri və qələbələri əks etdirir.

"Kiçik adam" mövzusu ABŞ ədəbiyyatında sosial tənqidin əsasını təşkil edir. Bu mövzu cəmiyyətin müxtəlif təbəqələrinin həyat şəraitini, onların qarşılaşdığı çətinlikləri və ziddiyyətləri araşdırmaq üçün bir vasitədir. Fərdi mübarizələrin təhlili cəmiyyətin daha geniş miqyaslı problemlərinə işarə edir. Yazıçılar "kiçik adam"ların hekayələri vasitəsilə ABŞ cəmiyyətinin struktur problemlərini ifşa edir. Bu mövzu zəngin və kasıb arasındakı uçurumu, cəmiyyətdəki bərabərsizlikləri və cəmiyyətdəki güc strukturlarını göstərmək üçün istifadə edilir [1, s.494].

Müasir ABŞ ədəbiyyatında da "kiçik adam" mövzusu aktuallığını qoruyub saxlayır. Müasir yazıçılar bu mövzunu yeni perspektivlərdən tədqiq edərək, cəmiyyətin yeni problemlərini və çağırışlarını işıqlandırırlar. Müasir dövrdə də kiçik adamın hekayələri cəmiyyətin daha geniş miqyaslı problemlərinin, fərdlərin həyatı üzərindəki təsirinin bir əksidir [4, s.129].

Beləliklə, bu mövzu ABŞ ədəbiyyatında cəmiyyətin daha geniş təbəqələrinin təcrübələrini əks etdirmək, onların qarşılaşdığı çətinlikləri və mübarizələri işıqlandırmaq üçün əhəmiyyətli bir vasitədir.

Bu mövzu ABŞ ədəbiyyatında mühim bir yer tutur və bu mövzu xüsusilə, Artur Miller və Coys Karol Outs kimi görkəmli yazıçıların əsərlərində özünü qabarıq şəkildə büruzə verir. Bu yazıçılar "kiçik adam"ların həyatını, onların mübarizələrini və sosial-siyasi şəraitdə yaşadıqları təcrübələri dərindən araşdıraraq ABŞ cəmiyyətinin mənzərəsini təsvir etmişlər. Onların yaradıcılığı "kiçik adam"ın həyatında yaşanan çətinliklərin, məhrumiyyətlərin və bəzən də qəddar reallıqların ifadəsi olaraq ABŞ ədəbiyyatında xüsusi yer tutur.

Artur Miller (1915-2005) XX əsrin ən əhəmiyyətli ABŞ dramaturqlarından biri kimi tanınır. Onun əsərləri Amerika cəmiyyətinin sosial və iqtisadi strukturlarını tənqid edən dərin və təsirli dramatik parçalar təqdim edir. A.Millerin əsərləri kişilər və qadınlar, ailələr və cəmiyyətlər arasındakı əlaqələr, sosial və iqtisadi çətinliklər və Amerika yuxusunun reallıqları kimi mövzuları araşdırır. Onun yaradıcılığı müasir teatrın formalaşmasına böyük təsir göstərmişdir [3, s.78].

Artur Miller 17 oktyabr 1915-ci ildə Nyu York şəhərində doğulmuşdur. Onun ailəsi ədəbiyyat və sənətə maraqlı olan mühitdə yaşayıb. A.Miller 1934-cü ildə Yuniorski Kollecdən məzun olduqdan sonra, 1938-ci ildə University of Michigan-da teatr üzrə təhsil aldı. Təhsil müddətində teatr və yazı sahəsindəki qabiliyyətləri inkişaf etdi və ilk əsərlərini burada yazmağa başladı [5].

Artur Millerin əsərləri sosial və iqtisadi mövzuları dərindən araşdırır. Onun yaradıcılığı müxtəlif dövrlərdə və sosial kontekstlərdə insan təcrübələrini təhlil edir. A.Millerin ən tanınmış əsərləri arasında "Satıcının ölümü" (Death of a Salesman), "Qiymət" (The Price), "Payızdan sonra" (After the Fall), "Bütün oğullarım" (All My Sons) və "Körpüdən görünüş" (A View from the Bridge) yer alır.

- Artur Millerin “Satıcının ölümü" (Death of a Salesman) əsəri ABŞ ədəbiyyatında “kiçik adam” mövzusunun ən təsirli və simvolik nümunələrindən biridir. Bu əsər kapitalist cəmiyyətin təzyiqləri və ideologiyası altında əzilən sadə bir insanın faciəsini təsvir edir. “Kiçik adam” mövzusu burada öz həyatını anlamaya çalışan və uğur qazanmağa cəhd edən bir insanın hekayəsi ilə özünü göstərir.

Əsərin baş qəhrəmanı Uilli Loman həyatını satıcı olaraq keçirmiş, daim daha yaxşı bir həyat və daha çox maliyyə sabitliyi arzulamış bir insandır. Lakin Uilli cəmiyyətin ona qoyduğu gözləntiləri və tələbləri yerinə yetirə bilmir. O, öz uğursuzluqlarını qəbul etməkdə çətinlik çəkir. Uillinin həyatı boyunca qarşılaşdığı iqtisadi və sosial təzyiqlər onun özünü dəyərsiz və cəmiyyətin tələb etdiyi uğurlu insan obrazına uyğun gəlmədiyini hiss etməsinə səbəb olur.

Əsərdə “kiçik adam” mövzusunun əsas təzahürü Uilli Lomanın xəyalları ilə reallıqlar arasındakı ziddiyyətdədir. O, böyük bir uğur əldə etmək, ailəsini maliyyə cəhətdən təmin etmək və hörmət qazanmaq istəyir. Lakin bu arzular ona çatmaq üçün bir xəyal olaraq qalır. Uilli həyatı boyunca özünü dəyərli hiss etmək və cəmiyyətdə bir yerə sahib olmaq üçün mübarizə aparır, lakin kapitalist sistemin qəddarlığı və rəqabətçi xarakteri ona bu imkanı vermir.

Əsərdə Uillinin qardaşı Benin simvolik obrazı onun uğur qazanmaq və daha yaxşı bir həyata çatmaq istəklərinin təcəssümü kimi təsvir edilir: *“Opportunity is tremendous in Alaska, William. Surprised you are not up there”; “Get out of these cities and fight for a fortune”; “There is a new continent at your doorstep, William. You could walk out rich. Rich!” [6, c. 23]*.

*“Alyaskada imkanlar çox böyükdür, Uili. Təəccüblüdür ki, hələ də orada deyilsən”; “Bu şəhərlərdən çıx və sərvət uğrunda mübarizə apar”; “Qapında yeni bir qitə var, Uili. Oradan zəngin çıxmaq olar. Zəngin!”.*

Benin sözləri Uillini reallıqdan uzaqlaşdırır və onu daim yeni bir həyat arzusuna qapılmağa sövq edir.

Mətndə Uillinin bu arzu və ümidləri ilə reallıq arasında qaldığı vəziyyət vurğulanır. Uilli Benin təklif etdiyi imkanlara qapılır, amma reallıqda bu imkanlara nail olmaq çətinliyini hiss edir. Uillinin həyatındakı böyük risklər və dəyişikliklər onun mübarizəsinin və uğursuzluğunun əsasını təşkil edir. Benin obrazı isə Uillinin gözündə reallıqdan daha çox xəyallar dünyasına aid olan bir simvol kimi görünür.

A.Millerin bu əsərində “kiçik adam” anlayışı yalnız Uilli Lomanın iqtisadi mübarizəsi ilə məhdudlaşmır. Əsərdə həmçinin, Uillinin ailəsi ilə olan münasibətləri də “kiçik adam”ın daha geniş mənasını açır. Uilli öz uşaqlarını da eyni uğursuzluq yollarında gedən insanlar kimi görür və bu vəziyyət onun daxili çöküşünü daha da dərinləşdirir. O, keçmişdə qalan xəyallarını və ideallarını itirərək real həyatda qarşılaşdığı çətinliklər və məğlubiyyətlər qarşısında tənəzzül edir.

Uilli Loman özünün və ümumilikdə, ölkənin vəziyyətini bu cür dəyərləndirir: *"In the greatest country in the world a young man with such personal attractiveness, gets lost." [6, s.118].*

*(Dünyanın ən böyük ölkəsində belə şəxsi cazibəyə malik bir gənc itir.)*

Əsərdə Uilli Lomanın ölümünü də "kiçik adam" mövzusunun mərkəzi bir elementi kimi qiymətləndirmək olar. Uillinin ölümü onun həyatının mənasızlığını və cəmiyyətin belə insanları necə bir kənara atdığını vurğulayır. O, həyatda uğur qazanmaq üçün mübarizə aparır, lakin nəticədə özünü qurban verir və bu ölüm onun həyatının ən böyük ironiyası kimi göstərilir. Uillinin ölümü kapitalist cəmiyyətin sadə insanları necə istismar etdiyini və onların bu sistemdə heç bir yeri olmadığını simvollaşdırır.

Uilli Lomanın hekayəsi yalnız onun şəxsi həyatı deyil, həm də ABŞ cəmiyyətindəki sosial və iqtisadi sistemin yaratdığı təzyiqlərin və tələblərin universal bir simvoluna çevrilir.

Artur Miller teatrın formalaşmasına mühüm töhfələr verib. O, müasir dramın inkişafına böyük təsir göstərmiş və yeni dramaturgiya anlayışlarını təqdim etmişdir. Dahi yazıçı karyerası ərzində bir çox mükafat və təltiflər qazanmışdır. O, Pulitzer Mükafatı, Tony Mükafatı və digər nüfuzlu teatr mükafatları ilə təltif olunmuşdur. A.Millerin şəxsi həyatı da onun yaradıcılığına təsir göstərmişdir.

Beləliklə, Artur Miller ABŞ ədəbiyyatında kiçik adam mövzusunun əhəmiyyətini dərindən təsvir edən və müasir teatrın formalaşmasına böyük təsir göstərən bir dramaturqdur. Onun əsərlərində "kiçik adam"ın həyatının müasir ABŞ cəmiyyətinin sərt reallıqları ilə necə uyğunlaşmağa çalışdığı həmçinin, bu mübarizələrin nəticələrinin nə qədər ağır olduğunu görürük.

Coys Karol Outs (1938-ci il təvəllüdlü) ABŞ ədəbiyyatının ən nüfuzlu yazıçılarından biri hesab olunur. Onun yaradıcılığı sosial realizm və insan psixologiyasının dərin analizi ilə seçilir. Coys Karol Outsun əsərlərində "kiçik adam" mövzusu cəmiyyətin kənarında qalan və gündəlik həyatın çətinlikləri ilə üzləşən insanların təmsili kimi əks olunur. O, kiçik adamların daxili dünyasını, onların sosial mühitlə olan əlaqələrini və özlərini necə ifadə etdiklərini dərin bir şəkildə təhlil edir. Yazıçının "Hara gedirsən, harada oldun?" ("Where Are You Going, Where Have You Been?") qısa hekayəsi onun ən məşhur əsərlərindən biridir və bir gənc qızın həyatında qarşılaşdığı təhlükələri və onun cəmiyyətin gözləntilərinə qarşı olan mübarizəsini təsvir edir. Hekayə fərdi təhlükəsizlik və sosial mühitin insan həyatına necə təsir etdiyini əks etdirir. C.K.Outs 2008-ci ildə bildirmişdi ki, xeyli sayda əsərlərinin olmasına baxmayaraq o ən çox "Hara gedirsən, harada oldun?" kitabının müəllifi olaraq məşhurdur [9]

- "Qəbirqazanın qızı" ("The Gravedigger's Daughter"): Bu roman ABŞ-da mühacir bir ailənin hekayəsini danışır və kiçik adamların cəmiyyətin sərt şərtləri ilə

necə mübarizə apardıqlarını göstərir. C.K.Outs bu əsərdə cəmiyyət həyatını təsvir edir və onların içərisindəki güclü psixoloji dinamikaları araşdırır.

Coys Karol Outsun "Yer üzündəki sevinclər bağı" (A Garden of Earthly Delights) romanı "kiçik adam" mövzusunu özündə dərinliklə əks etdirən əsərlərdən biridir. Bu əsərdə "kiçik adam" obrazı daha çox əsərin baş qəhrəmanı olan Klara Uolpolun şəxsiyyətində təcəssüm olunur. Klara yoxsul kəndli ailəsindən gələn bir qadındır və onun həyatı boyunca yaşadığı mübarizələr, arzular və uğursuzluqlar vasitəsilə "kiçik adam" anlayışı ədəbiyyatın mərkəzində dayanır.

Klara Uolpol həyatı boyunca cəmiyyətdə öz yerini tapmaq və sosial-iqtisadi şərtlərin yaratdığı sıxıntılardan qurtulmaq üçün çabalayan bir xarakterdir. Onun həyat hekayəsi yoxsulluqdan qurtulmaq və daha yaxşı bir gələcək qurmaq üçün verdiyi mübarizələrlə doludur. Lakin bu mübarizələr və Klaranın sosial yüksəliş arzuları ona çox vaxt ümid verən, amma sonunda onu məğlub edən amillər kimi təsvir edilir.

Klara Kurt Reverlə ailə həyatı qurur, çünki *"he has money, power, name"* [7, s.267]. (*"onun pulu, gücü, adı var")*

Evləndikdən sonra Klara çoxdan arzusunda olduğu maşına, bağa, evə sahib olur. Amma Klaran ən çox bağını bəyənir: *"The garden was very large, not easy for a woman to manage; True, Revere and Cretch could help. But this is his garden. Now this is Clary's garden, no one else's. This garden is his whole world, he doesn't need anything else"* [7, s. 398].

(*"Bağ çox böyük idi, bir qadının idarə etməsi asan deyil; Düzdür, Rever və Kreçet kömək edə bilərdilər. Amma bu onun bağıdır. İndi bura Klarinin bağıdır, başqa heç kimin. Bu bağ onun bütün dünyasıdır, onun başqa heç nəyə ehtiyacı yoxdur.)*

Bağ Klaranın şəxsi həyatı və dünyası üçün simvolik bir məna daşıyır. C.K.Outs bu məqamla Klaranın daxili dünyasını, şəxsi məmnuniyyət və tənhalığını vurğulayır. Klara üçün bu bağ yalnız bir mülkiyyət deyil, həm də onun daxili sakitliyini və xoşbəxtliyini tapdığı yer olur. Klara bu bağla əlaqədar olaraq öz dünyasını qurur və bu dünya onun üçün həyatın digər aspektlərindən daha dəyərlidir. Bağın ona məxsusluğu, onun öz şəxsiyyətini, müstəqilliyini və öz həyatını idarə etmək arzularını simvolizə edir. Klara hər şeydən əvvəl, bu bağ vasitəsilə öz həyatında özünü təsdiqləyir və başqalarına asılı olmadan yaşaya biləcəyini sübut edir.

C.K.Outs Klaranın həyatını təsvir edərkən onun böyük çətinliklərlə qarşılaşdığı bir dünyada necə var olmağa çalışdığını vurğulayır. Bu dünyada Klara yalnız öz gücü ilə nəsə əldə etməyə məhkumdur.

Bu məqamda "kiçik adam" obrazı yalnız sosial-iqtisadi çətinliklər içərisində qalan bir fərdi deyil, eyni zamanda C.K.Outsun əsər vasitəsilə cəmiyyətin sosial strukturlarını və bu strukturların fərdlərə necə təsir etdiyini göstərmək üçün istifadə

etdiyi bir obrazdır. Klaranın uğursuzluqları və arzularının reallaşmaması, əslində, C.K.Outsun ABŞcəmiyyətinin sosial-siyasi strukturuna yönəltdiyi bir baxışdır.

C.K.Outsun əsərlərində fərqli sosial qruplar və onların həyat tərzi geniş təsvir olunur. O, fərdlərin cəmiyyətin sərt şərtləri altında necə məhdudlaşdığını və onların sosial və iqtisadi təzyiqlərdən necə təsirləndiyini göstərir [2].

Bunlardan əlavə, C.K.Outsun əsərlərində qadınların vəziyyəti xüsusi bir əhəmiyyət kəsb edir. O, qadınların cəmiyyətdəki rolu, onların qarşılaşdığı cinsi təzyiqlər və gender bərabərsizliyi məsələlərini açıq şəkildə təhlil edir. Bu mövzular C.K.Outsun əsərlərində "kiçik adam" konseptinin bir hissəsi kimi çıxış edir və qadınların sosial ədalətsizliklərlə necə başa çıxdığını göstərir.

C.K.Outs xarakterlərin daxili dünyasını və onların psixoloji vəziyyətini dərindən araşdırır. O, fərdlərin özlərinə qarşı olan münasibətlərini, onların sosial gözləntilərə uyğunlaşma çətinliklərini və daxili mübarizələrini təsvir edir. Bu konfliktlər əsərlərdə dramatik gərginliyi artırır və "kiçik adam"ın daxili dünyasını daha da açıq şəkildə göstərir [8].

Beləliklə, C.K.Outsun əsərləri ABŞ ədəbiyyatında "kiçik adam" mövzusunun əhəmiyyətli bir nümunəsidir.

## Nəticə

Artur Miller və C.K.Outsun əsərləri kontekstində "kiçik adam" mövzusunun ABŞ ədəbiyyatında əhəmiyyəti və təsiri diqqətəlayiqdir. Hər iki yazıçı "kiçik adam"ın cəmiyyətdəki yerini, onun qarşılaşdığı çətinlikləri və həyatının çətin reallıqlarını ustalıqla təsvir edir. A.Millerin əsərlərində kiçik adam sosial təzyiqlər və iqtisadi şərtlər altında məhv olan, lakin insan ləyaqətini qorumağa çalışan bir obraz kimi çıxış edir. C.K.Outs isə bu mövzunu daha çox fərdi və psixoloji aspektlərdən işləmişdir, insanın daxili narahatlıqlarını, şəxsi mübarizələrini və cəmiyyətlə olan qarşıdurmalarını əks etdirmişdir.

Bu əsərlərin hər ikisi "kiçik adam"ın yaşadığı sosial və şəxsi çətinlikləri dərinliklə göstərir, onun cəmiyyətin sərt və bəzi hallarda ədalətsiz reallıqları ilə necə üzləşdiyini təsvir edir. Həm A.Miller, həm də C.K.Outs "kiçik adam"ın hekayəsi vasitəsilə ABŞ cəmiyyətindəki dərin sosial problemləri və insan ləyaqətinin qorunması üçün göstərilən mübarizələri bədii dillə ifadə etmişlər.

Mövzu ilə bağlı aşağıdakı təkliflər verilə bilər:

- ABŞ ədəbiyyatında "kiçik adam" mövzusunu daha dərindən öyrənmək və bu mövzunun müasir dövrdəki əhəmiyyətini araşdırmaq üçün daha çox elmi tədqiqatlar aparılmalıdır. A.Miller və C.K.Outsun əsərləri bu mövzunun zənginliyini və müasir kontekstlərdə necə inkişaf etdiyini göstərir, bu da gələcək tədqiqatlar üçün zəmin yaradır.

- Kiçik adam mövzusunu müxtəlif ölkələrin ədəbiyyatları ilə müqayisəli şəkildə öyrənmək maraqlı ola bilər. Bu, mövzunun universal əhəmiyyətini və müxtəlif mədəniyyətlərdə necə ifadə edildiyini ortaya çıxaracaq.

- A.Miller və C.K.Outsun əsərlərindəki kiçik adam mövzusunun müasir ABŞ ədəbiyyatında necə inkişaf etdiyini və bu mövzunun yenilikçi yanaşmalarla necə ifadə edildiyini araşdırmaq faydalı ola bilər.

- "Kiçik adam" mövzusunun əhəmiyyəti nəzərə alınaraq bu mövzu təhsil proqramlarına daxil edilməli və tələbələr arasında sosial ədalət, insan hüquqları və cəmiyyətin zəif üzvlərinə qarşı məsuliyyət mövzularının müzakirəsinə səbəb olmalıdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

### *Rus dilində*

1. Гугнин А. А. «Маленький человек» // Литературная энциклопедия терминов и понятий / Под ред. А. Н. Николюкина. - М., 2001. - С. 494 - 495.
2. Дубодел А. П. Тема «маленького» человека в американском обществе (на материале произведений А. Миллера и Дж. К. Оутс) [Электронный ресурс] // Огарев-online. – 2015. – №8. – Режим доступа: https://journal.mrsu.ru/arts/tema-malenkogo-cheloveka-v-amerikanskom-obshhestve-na-materiale-proizvedenijj-a-millera-i-dzh-k-outs
3. Злобин Г. П. По ту сторону мечты: Страницы американской литературы XX века. – М.: Худ. лит., 1985. – 230 с.
4. Мулярчик А. С. Современный реалистический роман США. – М.: Высшая школа, 1988. – 177 с.

### *İngilis dilində*

5. Michael Ratcliffe. Arthur Miller (англ.). The Guardian (12 мая 2005). Дата обращения: 25 мая 2020. Архивировано 23 июля 2012 года.
6. Miller A. The Death of a Salesman. – N.Y., 1989. – 139 p.
7. Oates J. C. "A Garden of Earthly Delights" United States, Vanguard Press, 1967, 440 pp
8. Tromble Tanya L. "Fiction in Fact and Fact in Fiction in the Writing of Joyce Carol Oates," Bearing Witness: Joyce Carol Oates Studies: 2015, Vol. 2, Article 2
9. Truman, Cheryl. «Author Joyce Carol Oates is always at her finest» Архивная копия от 28 сентября 2013 на Wayback Machine (reprint), Lexington Herald-Leader, 2008. Retrieved on 2008-10-29.

**Rəyçi: Prof. Gülər Abdullabəyova**